# NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİ SƏDRİNİN

# F Ə R M A N I

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” 2020-ci il 17 aprel tarixli 7-VI FR nömrəli və “Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamə”nin və “Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi”nin təsdiq edilməsi barədə” 2025-ci il 19 mart tarixli 11-VII FR nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini və 30-cu maddəsini rəhbər tutaraq **qərara alıram:**

1. “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2020-ci il 17 aprel tarixli 7-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bənddə və 3.0.44-cü yarımbənddə ismin müvafiq hallarında “(o cümlədən balıq və digər su bioresursları)” sözləri “(balıq və digər su bioresursları istisna olmaqla)” sözləri ilə əvəz edilsin;

1.2. 1.4-cü bəndə “üzərində” sözündən sonra “Azərbaycan Respublikası” sözləri, “möhürü” sözündən sonra “, kargüzarlıq xidmətinin gerbsiz möhürü” sözləri əlavə edilsin və həmin bənddə “ştampı” sözü “ştampları” sözü ilə, “blankı” sözü “blankları” sözü ilə əvəz edilsin;

1.3. 1.5-ci bənddə “dövlət” sözü “Naxçıvan Muxtar Respublikasının” sözləri ilə əvəz edilsin;

1.4. 3.0.3-cü yarımbəndə “qabaqcıl” sözündən sonra “beynəlxalq” sözü əlavə edilsin;

1.5. 3.0.8-ci yarımbənddə “qanunvericiliyə” sözü “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikasının Qanununa 3 nömrəli əlavə – “Sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısı”nın 10-cu, 14–18-ci və 20–21-ci maddələrinə” sözləri ilə əvəz edilsin;

1.6. 3.0.9-cu yarımbənddə “qanunvericiliyin” sözü “Ətraf mühitin mühafizəsi haqqında” və “Lisenziyalar və icazələr haqqında” Azərbaycan Respublikası qanunlarının, digər normativ hüquqi aktların” sözləri ilə əvəz edilsin;

1.7. 3.0.17-ci yarımbənddən “, çirkab suların atılması qayda və şərtlərinə” sözləri çıxarılsın;

1.8. 3.0.22-ci yarımbənddə “uçotunu” sözü “uçotunun” sözü ilə, “kadastrını aparmaq” sözləri “kadastrının aparılmasında iştirak etmək” sözləri ilə əvəz edilsin;

1.9. 3.0.23-cü, 3.0.45-7-ci və 3.0.49-3.0.54-cü yarımbəndlər ləğv edilsin;

1.10. 3.0.24-cü yarımbənddə “monitorinqini aparmaq” sözləri “monitorinqinin aparılmasında” sözləri ilə, “sxemlərini, su təsərrüfatı balanslarını hazırlamaq” sözləri “sxemlərinin, su təsərrüfatı balanslarının hazırlanmasında iştirak etmək” sözləri ilə əvəz edilsin;

1.11. 3.0.25-ci yarımbənddən “və onların mühafizəsi” sözləri çıxarılsın;

1.12. 3.0.26-cı yarımbənddə “İstehsalat və məişət tullantıları” sözləri “Tullantılar” sözü ilə əvəz edilsin;

1.13. 3.0.33-cü, 3.0.34-cü, 3.0.45-2-ci, 3.0.45-5-ci, 3.0.57-ci, 3.0.59-cu, 3.0.61-ci, 3.0.64-cü və 3.0.66-cı yarımbəndlərdə “olan” sözü “olmayan tabeliyindəki” sözləri ilə əvəz edilsin;

1.14. 3.0.36-cı yarımbəndə “istifadəyə” sözündən əvvəl “strukturuna daxil olmayan tabeliyindəki qurum vasitəsilə” sözləri əlavə edilsin;

1.15. 3.0.45-3-cü yarımbənddə “olan” sözü “olmayan tabeliyindəki” sözləri ilə əvəz edilsin və həmin yarımbənddən “və su” sözləri çıxarılsın;

1.16. 3.0.48-ci yarımbəndə “(tutulmasına)” sözündən sonra “strukturuna daxil olmayan tabeliyindəki qurum vasitəsilə” sözləri əlavə edilsin;

1.17. 3.0.60-cı yarımbəndə “aeronaviqasiya” sözündən əvvəl “beynəlxalq” sözü əlavə edilsin;

1.18. 3.0.62-ci yarımbənddən “yerüstü suların dövlət uçotunun aparılmasını təmin etmək,” sözləri çıxarılsın;

1.19. 3.0.63-cü yarımbəndə “transsərhəd” sözündən əvvəl “strukturuna daxil olmayan tabeliyindəki qurum vasitəsilə” sözləri əlavə edilsin və həmin yarımbənddə “sxemlərini tərtib etmək, eləcə də hövzə idarəetmə planlarını hazırlamaq və həyata keçirmək” sözləri “sxemlərinin tərtib edilməsində, eləcə də hövzə idarəetmə planlarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək” sözləri ilə əvəz edilsin;

1.20. 5.16-cı bənddən “ , balıq ovunun tənzimlənməsinə” sözləri çıxarılsın.

2. “Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamə”nin və “Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi”nin təsdiq edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2025-ci il 19 mart tarixli 11-VII FR nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

2.1. həmin Fərmanla təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Ekoloji Təhlükəsizlik Xidməti haqqında Əsasnamənin”nin 3.1.8-ci və 3.1.9-cu yarımbəndləri ləğv edilsin;

2.2. həmin Fərmanla təsdiq edilmiş “Dövlət Ekoloji Ekspertiza Agentliyinin Nizamnaməsi”nin 3.1.7-ci yarımbəndi ləğv edilsin.

3. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **BƏXTİYAR MƏMMƏDOV**

Naxçıvan şəhəri, 12 fevral 2026-cı il
№ 34-VII FR